

# ABŞ-AZƏRBAYCAN: TƏHSİL SAHƏSİNDƏ ƏMƏKDAŞLIĞI İNKİŞAF ETDİRMƏLİYİK



*2001-ci il noyabrın 28-də ABŞ-ın Azərbaycandakı səfiri Ross Wilson Xəzər Universitəsində olmuşdur. Xəzər Universitəsinin rektoru, professor Hamlet İsaxanlının həmin görüşdəki çıxışını təqdim edirik*



*Hörmətli qonaqlar! Xanımlar və cənablar! Hörmətli səfir!*

***Müasir dünyanın ən böyük siyasi və iqtisadi gücü olan Birləşmiş Ştatlarla münasibət hər hansı ölkə üçün çox mühümdür. Yenicə müstəqilliyə qədəm qoymuş ölkələr üçün isə bu münasibətlər çox zaman həlledici rol oynayır. Eləcə də Birləşmiş Ştatlar öz siyasi və iqtisadi birinciliyini qoruyub saxlamaq strategiyasına uyğun olaraq yeni yaranmış dövlətlərlə münasibətlərinə böyük diqqətlə yanaşır.***

Birləşmiş Ştatlar – Azərbaycan əlaqələrinin xronikası o qədər də uzun deyil. Bu əlaqələrə nəzər saldıqda dörd dövrün varlığı aydın olur.

1. Amerika-Azərbaycan münasibətləri əvvəl-əvvəl elm, mədəniyyət sahələrində özünü büruzə vermişdir. Azərbaycan Rusiyaya birləşdirilən dövrdə Azərbaycanın ən böyük mütəfəkkiri və humanisti, şair, tarixçi və maarifçi Abbasqulu ağa Bakıxanov 1830-cu ildə «Kəşfül-Qə-raib» ("Qəribəliklərin kəşf") adlı əsəri ilə əslində bizdə Amerikaşünaslığın əsasını qoydu. Bu əsərdə şimallı-cənublu Amerikanın kəşfi tarixi, coğrafiyası və iqtisadiyyatı haqqında ətraflı məlumat verilmişdir. Həmin 19-cu yüzilliyin ən böyük Amerikan şairi Henry Wadsworth Longfellow (1807-1882) məşhur və ən sevimli dastanımız «Koroğlu»nun təsiri ilə gözəl bir şer - qısa poema yazmışdı (Koroğlu ilə Ərəb Reyhanın qarşıdurmasına aid bu şeri Cəfər Cabbarlı Azərbaycan dilinə tərcümə etmişdir…)

2. Sonralar Azərbaycan neft ölkəsi kimi amerikalıların diqqətini cəlb etmiş, Birinci dünya müharibəsi, Rusiya imperiyasının dağılması, qısa ömürlü Azərbaycan Demokratik Respublikasının yaradılması dövründə Azərbaycan - Birləşmiş Ştatlar münasibətləri siyasi və iqtisadi yönüm (oriyentasiya) aldı.

3. Azərbaycan məsələsi İranın şimal hissə-

sini nəzarətinə almış sovetlərin köməyi ilə 1945-1946-cı illərdə İran Azərbaycanında hakimiyyət quran Azərbaycan Demokratik Firqəsinin fəaliyyəti və Rusiya-ABŞ-İngiltərə qarşıdurması nəticəsində yıxılması zamanı bir daha Birləşmiş Ştatların diqqət mərkəzində olmuşdur.

*4.Yeni dövr - 1990-2001-ci illər.*

***Yeni dövlət – Azərbaycan Respublikası yaranmış, Birləşmiş Millətlər Təşkilatının üzvü olmuş, Birləşmiş Ştatlarla diplomatik münasibətlər qurulmuşdur. İki dövlət arası münasibətlər aşağıdakı sahələrdə inkişaf etmişdir:***

***a) siyasi-diplomatik münasibətlər***

***b) iqtisadi münasibətlər***

***c) demokratiyanın inkişafı istiqamətində «ABŞ – Azərbaycan cəmiyyəti» münasibətləri***

***d) elm, təhsil, mədəniyyət sahəsində əməkdaşlıq.***

***Bu sahələrin hər birində mühüm addımlar atılmışdır. Bir çox məsələlər həll olunmuş, bir sıra məsələlərin həlli yolunda ciddi işlər görülüb, bəzi sahələrdə isə məsələlər təəssüf ki, düyünə düşüb, həll olunmamış qalır (məsələn, Ermənistanla Azərbaycan arasında Dağlıq Qarabağla bağlı ərazi problemi).***

Mən bizim əsas işimiz olan elm, təhsil sahəsindəki əməkdaşlıq, uğurlar və çətinliklər barədə də söhbət açmaq istəyirəm.

***Cəmiyyətin demokratik məcraya düşməsi, dünyaya təbii şəkildə qovuşması, inteqrasiyası və ümumiyyətlə, ölkənin inkişafı üçün dünyəvi və milli dəyərlərin sintezini yarada bilən qurumlara - institutlara böyük ehtiyac var. Bizim Xəzər Universitəsi məhz bu ideya üzərində qurulub.*** Dünyəvi dəyərləri biz daha çox Amerika təhsilindən bəhrələnməklə, Amerika Universitələri ilə əməkdaşlıq vasitəsilə tətbiq edirik. Bu əməkdaşlığı Birləşmiş Ştatların Dövlət Departamenti, Avroasiya fondu, Soros fondu, İREX təşkilatı, NATO, UNOCAL,... dəstəkləmişlər, onlarla birlikdə biz çoxsaylı proqramlar həyata keçirmişik. Əldə olunan nailiyyətlər də göz qabağındadır. Xəzər Universitəsi azad fikrin, yüksək səviyyəli tədqiqatların, ciddi təhsilin inkişaf etdiyi bir elm, təhsil, mədəniyyət ocağı kimi tanınmışdır. Bu yaxınlarda Avropa Komissiyasının monitorinqi ilə bağlı universitəmizdə aparılan müzakirələr bu fikri təsdiq edən çoxsaylı əlamətlərdən biri kimi göstərilə bilər.

***İndi əsas məsələlərdən biri təhsil islahatları çərçivəsində əməkdaşlığımızın nəticəsini qoruyub saxlamaq və daha da inkişaf etdirməkdir. Təəssüf ki, bu o qədər də asan deyil. Ətraf mühit öz təsirini göstərir, bəzən bu təsirlər istədiyimizdən xeyli fərqli olur...***

***Müstəqillik, azadlıq fərdlərdən, insanlardan, onları özündə birləşdirən qurumlardan - institutlardan başlayır, maddi və mənəvi qüvvəyə çevrilir. İnsanlar da, qurumlar da, xüsusilə elm-tədris ocaqları tək varlığını deyil, səviyyəsini və müstəqilliyini də qorumalıdır... Bu sahədə biz həm dövlətimizin, həm də beynəlxalq qurumların, xüsusilə ABŞ-ın dəstəyinə ümid bəsləyirik.***

***Bugünkü müzakirələrimizin əsas nəticəsi heç də müxtəlif problemlərin həlli yolunda qəti və mütləq fikirlərin söylənilməsi və uyğun alqoritmlərin təklif edilməsi deyil. Biz, cənab səfir, bizim elmi ictimaiyyətin və siyasət adamlarının müxtəlif fikirlərini ortaya çıxarmaqla, gerçəkliyin bütün üzlərini görməyə çalışırıq. Daha geniş, daha dərin düşünmək və təhlil etmək imkanı əldə edirik.***

Müzakirələrdə aparıcı olan şəxslərə, müxtəlif məsələlər qaldırmaqla rəngarənglik yaradanlara və kəskin, eləcə də gözlənilməz suallarla müzakirələrə canlı nəfəs verənlərə təşəkkürümü bildirirəm.

Sağ olun.

***ABŞ-ın Azərbaycandakı səfiri cənab Ross Wilson böyük maraq doğuran çıxışında Amerika-Azərbaycan münasibətlərinin inkişafından söhbət açdı. O, siyasi və iqtisadi sahələrdə iki dövlət arasında əməkdaşlığın daha yüksək səviyyəyə qalxdığını qeyd etdi. 11 sentyabrdan sonra bu münasibətlərin yeni - dostluq rəngi aldığını da vurğuladı. Bununla bərabər Azərbaycan-Amerika əlaqələrinin irəli getməsi üçün demokratiyanın daha da gücləndirilməsinin vacibliyini vurğuladı və bu sahədə Azərbaycana, Azərbaycan hökumətinə hər cür köməyə hazır olduqlarını söylədi.***

Qızğın müzakirələrdə Azərbaycan-Amerika əlaqələrinin müxtəlif tərəflərinə toxunuldu.